# Həzin xatirə

**"Jurnalımız çapa hazırlanırdı ki, Tərtərdən telefon zəngi gəldi: Sizə bir informasiya vermək istəyirəm..."**

Səsindən tanıdım. Həmişə redaksiyamızla sıx əlaqə saxlayan rayon mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru Ulduzə xanım Qurbanova idi. Onun verəcəyi məlumat da ulu öndərimizin anadan olmasının 86-cı ildönümü ilə bağlı bölgədə keçirilən ədəbi-bədii, elmi-kütləvi tədbirlərlə əlaqədar idi.

Ulduzə xanım bildirdi ki, tədbirə Tərtərin bütün rəhbər işçiləri, ziyalılar, elm, təhsil, səhiyyə və mədəniyyət xadimləri qoşulmuşlar. Onlar əvvəllər Heydər Əliyevin abidəsi qarşısında çiçək dəstələri düzdülər, ümummilli liderin xatirəsi önündə baş əydilər.

Sonra rəngarəng tədbirlər - "Dəyirmi masa", "Heydər Əliyev - 86" foto-stend, ədəbi-bədii gecə və s. keçirildi. Məktəblilərin ifasında ulu öndərə həsr olunmuş şeir və nəğmələr səsləndirildi. Tədbir iştirakçıları yüksək səviyyədə hazırlanmış bu görüşdə U.Qurbanovanın ulu öndərlə bağlı xatirəsini, onun Azərbaycan qadınlarının I qurultayında xatirə şəkli çəkdirməsi faktını maraqla qarşıladılar.

● **G.QULİYEVA**